# Müstəqilliyimiz əbədidir...



Qarşıdan " 28 May- Müstəqillik Günü" gəlir. İndi ikinci ildir ki, Odlar Yurdu Azərbaycan öz əziz gününü qalib xalq kimi bayram edir. Bu münasibətlə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında tədbir keçirildi. "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir" adlı tədbir Ulu Öndər Heydər Əliyevin, eləcədə Vətən müharibəsində Şəhid olanların əziz xatirəsi 1 dəqiqəlik sükutla yad olunmaqla başlandı. Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev hər bir azərbaycanlının ürəyində yeri olan gün münasibətilə tədbir iştirakçılarını təbrik etdi və 15 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu" haqda ətraflı məlumat verib vurğuladı ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bildirməklə xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdı. Ömrü 23 ay çəksə də, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin yaranmasına əhəmiyyətli təsir göstərmişdir. Tədbir iştirakçıları tərəfindən maraqla dinlənilən çıxışında natiq daha sonra dedi:-15 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq olunmuş "Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən Mayın 28-i Müstəqillik Günü, Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilmişdi. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini yaşadan əsas amillər qorunub saxlanır və inkişaf etdirilir.Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətidir. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb.

Təşkilat sədri öz məzmunlu nitqini aşağıdakı fikirləri ilə tamamladı: - Ulu Öndər Heydər Əliyevin müstəqil dövlət konsepsiyası və onun ayrılmaz tərkib hissəsi olan azərbaycançılıq ideologiyasının həyata keçirilməsi müstəqil Azərbaycan dövlətinin bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir. Azərbaycan Respublikasının prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ölkəmizin firavan gələcəyinin təminində Heydər Əliyevin müstəqil dövlət təlimi vəazərbaycançılıq ideologiyasıalternativsiz bir yoldur. Partiya fəallardan C.Əlili, G. ulamova, N.Nuriyev və digərləri söz alıb dövlət müstəqilliyinin əbədi, dönməz olmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışdılar və bu siyasi kursun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etməsini bildirdilər.

*Zəfər ORUCOĞLU*

Kredo .- 2022.- 2 iyun.- S.16.